# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna dəyişikliklər və əlavələr edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**1.** «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun təsdiq edilməsi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Əsasnaməsinə əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli, 510 nömrəli Fərmanı ilə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 6, maddə 408; 2004-cü il, № 5, maddə 333, № 6, maddə 441, № 12, maddə 1002) təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.1. 2-ci bənddə:

1.1.1. *«Qaçaqmalçılıq və Gömrük Qaydalarının Pozulması ilə Mübarizə Baş İdarəsi»* sözləri *«Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsi»* sözləri ilə əvəz edilsin;

1.1.2. *«Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsi»* sözlərindən sonra *«Audit və Risk Analizləri İdarəsi»* sözləri əlavə edilsin;

1.2. 3-cü bənddə:

1.2.1. *«Naxçıvan Gömrük Komitəsi»* sözləri *«Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi»* sözləri ilə əvəz edilsin;

1.2.2. *«Əli Bayramlı Gömrük İdarəsi»* sözləri *«Şirvan Gömrük İdarəsi»* sözləri ilə əvəz edilsin;

1.2.3. *«Naxçıvan şəhər Gömrük İdarəsi», «Sədərək Gömrük İdarəsi», «Culfa Gömrük İdarəsi»* və *«Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi»* sözləri çıxarılsın;

1.3. aşağıdakı məzmunda 4-cü bənd əlavə edilsin:

*«4. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan gömrük orqanları və təşkilatları:*

- *Naxçıvan şəhər Gömrük İdarəsi*
- *Sədərək Gömrük İdarəsi*
- *Culfa Gömrük İdarəsi*
- *Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi*

- *Şaxtaxtı Gömrük İdarəsi*
- *«Naxçıvanterminalkompleks» Təsərrüfat Hesablı Xarici İqtisadi Birlik.».*

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 2 iyun 2008-ci il***

***№ 767***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2008-ci il, № 6 (132), maddə 485) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*